# Bu gün beynəlxalq siyasi münasibətlərdə Azərbaycan–Türkiyə müttəfiqliyinin alternativi yoxdur

***Azərbaycan dövlət müstəqilliyini qazandığı ilk illərdə ortaq tarixə və eyni soykökə malik Azərbaycan- Türkiyə münasibətləri xalqların sevgisi, mədəni birliyi üzərində formalaşmışdısa, bu gün artıq bu münasibətlər ən möhkəm şəkildə, siyasi, iqtisadi, hərbi ittifaq səviyyəsindədir. Böyük və dahi Heydər Əliyevin "bir millət, iki dövlət" deyərək qurduğu Azərbaycan-Türkiyə əlaqələri Prezident İlham Əliyevin fövqəladə siyasəti nəticəsində indiki arzulanan səviyyəyə gəlib çatmışdır. Bu gün beynəlxalq siyasi münasibətlərdə Azərbaycan-Türkiyə müttəfiqliyinin alternativi yoxdur. Ortaq tarixi dəyərlər üzərində qurulmuş Bakı-Ankara birliyi hazırda hər iki qardaş ölkənin liderlərinin uğurlu strategiyası nəticəsində elə həddə çatmışdır ki, dünyanın istənilən siyasi gücü regionla bağlı siyasətini məhz bu iki dövlətin maraqlarına uyğunlaşdırır.***

***Bu fikirləri Milli Məclisin deputatı, YAP İdarə Heyətinin üzvü Rəşad Mahmudov söyləyib.***




Deputat Rəşad Mahmudov qeyd edib ki, ölkə başçısının son səfəri də heç şübhəsiz ki, iki qardaş dövlət arasında münasibətlərə öz töhfəsini verəcək. Dünyanın indiki gərgin hərbi-siyasi durumunda regionun liderləri və əsas söz sahibləri olan prezidentlər İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğan arasındakı görüş və müzakirələr iki dövət üçün atılacaq addımlar, sərgilənəcək mövqe baxımından müstəsna əhəmiyyət daşıdı. Bundan başqa, dövlət başçılarının Rizə-Artvin Hava Limanının açılış mərasimindəki çıxışları maraqla qarşılandı.

Yeni hava limanının açılışının Türkiyənin uğurlu iqtisadi inkişafının təzahürü olduğunu qeyd edən dövlət başçısı İlham Əliyev qardaş ölkənin gündən-günə güclənməsində Prezident Rəcəb Tayyib Ərdoğanın yüksək xidmətlərinin olduğunu vurğuladı. Ölkəmizin başçısı haqlı olaraq bildirdi ki, tikilən hava limanları, su anbarları, yollar, körpülər, məktəblər, xəstəxanalar Türkiyənin inkişafını, gücünü göstərən əsas amillərdir. Bütün bu layihələrin mərkəzində insan amili dayanır.

Biz bu gün arzuladığımız qüdrətli bir Türkiyə görürük. Məhz bu gün həyatın bütün sahələrində inkişaf dövrünü yaşayan türk dövləti dünya miqyasında böyük güc mərkəzinə çevrilərək söz sahibi olub.

Birliyimizin sarsılmaz olduğunu qeyd edən dövlətimizin başçısı xalqımızın Qarabağ müharibəsinin ilk günündə Türkiyənin və cənab Rəcəb Tayyib Ərdoğanın mənəvi, siyasi dəstəyini gördü. Azərbaycan heç vaxt bu qardaşlığı, bu dəstəyi unutmayacaq. Bu həm də o demək idi ki, biz tək deyilik, xalqımıza bu mənəvi dəstək böyük ruh verirdi.

Postmünaqişə dövründə düşmənin xaraba qoyduğu işğaldan azad olunmuş torpaqlarımızda indi geniş quruculuq, bərpa işləri aparılır. Həmişəki kimi, bu gün də Türkiyə yanımızdadır. Müzəffər Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, Qarabağın bərpası işində bizimlə bərabər çalışır. Türkiyə şirkətləri, o cümlədə Rizə-Artvin Hava Limanını ərsəyə gətirən şirkət də Qarabağın bərpasında yaxından iştirak edir.

Azərbaycan-Türkiyə dövlətləri arasındakı münasibətlər hazırda hər iki ölkə rəhbərliyi tərəfindən həyata keçirilən düzgün, məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq daha yüksək səviyyəyə çatmış, bir sıra sahələr üzrə isə keyfiyyətcə yeni müstəviyə keçmişdir. "Müttəfiqlik haqqında Şuşa Bəyannaməsi" Azərbaycan–Türkiyə münasibətlərini daha da möhkəmləndirmişdir.

Erməni işğalından azad edilən Qarabağ və Şərqi Zəngəzurun bərpa prosesinə qoşulan qardaş ölkə şirkətləri tərəfindən hazırda bu əbədi və əzəli ərazilərimizdə genişmiqyaslı layihələr reallaşdırılır. Yeri gəlmişkən, xatırladım ki, Prezident İlham Əliyev düşməndən təmizlənən torpaqlarda tikinti-quruculuq, yenidənqurma layihələrinin icrasına başlanmazdan əvvəl ayrı-ayrı çıxışlarında bu məsələdə dost ölkələrin fəaliyyətinə daha çox diqqət yetiriləcəyini xüsusi vurğulayırdı. Ölkə rəhbəri bu zaman qardaş Türkiyənin Azərbaycana münasibəti barədə xüsusi danışaraq, dost ölkənin müharibənin ilk günlərindən haqq işimizə böyük dəstək verdiyini xatırladırdı. Bütün bunlardan sonra ötən müddətdə təbii ki, qardaş ölkə Qarabağın bərpasında da köməyini əsirgəmədi. İlk müqavilələrin Türkiyə şirkətləri ilə imzalanması da bunun bariz ifadəsidi idi.

Beləliklə, artıq bir ildən çoxdur ki, erməni işğalından azad edilən Qarabağ və Şərqi Zəngəzurun bərpa prosesinə qoşulan qardaş ölkə şirkətləri tərəfindən bu əbədi və əzəli ərazilərimizdə genişmiqyaslı layihələr reallaşdırılır.

Rəşad Mahmudov son olaraq qeyd edib ki, cənab İlham Əliyevin bildirdiyi kimi Azərbaycan və Türkiyə bütün məsələlərdə bir yerdədir və bu gün dünyada ikinci belə ölkələr tapılmaz ki, bir-birinə bu qədər yaxın olsun. Bu birlik həm də yenilməzliyimizin qarantıdır.

*"Xalq qəzeti"*

Xalq qəzeti .- 2022.- 18 may.- S.3.